Aqrar Xidmətlər Agentliyi

# ŞAFTALIDA YARPAQ QIVRILMASI
## (Taphrina deformans Tul.)



088-588
axa.gov.az

## Xəstəlik haqqında

Yazın yağıntılı keçməsi xəstəliyin yayılmasını sürətləndirir. Sirayətlənmiş yarpaqlar sağlamlardan fərqli olaraq, anormal qıvrılmış, qırmızı - çəhrayı və ya parlaq sarı rəngdə olur. Nəticədə bitkinin məhsuldarlığı azalır, budaqlarda kitrəaxını başlayır, əlverişsiz mühit amillərinə qarşı dözümlülük aşağı düşür. Xəstəlik xroniki inkişaf edən zaman ağacların əksəriyyəti vaxtından əvvəl məhv olur.

## Mübarizə tədbirləri

- Davamlı sortlardan istifadə;
- Tökülən yarpaqların məhv edilməli;
- Yoluxmuş budaqlar may ayının əvvəllərində budanmalı və sahədən kənarlaşdırılmalıdır.

**Təsiredici maddəsi** Nisbi sükunət dovründə ağacların 3%-li bordo məhlulu ilə çilənməsi yaxşı nəticə verir. Vegetasiya dövründə Dithianon 70% (0,5-0,7 kq/ha), Sineb 75 % (4 kq/1000l su ), Difenoconazole 25 % (0,2 l/ha) tərkibli funqisidlərdən növbələşdirilərək 10-15 gün intervalı ilə çiləmə aparılması yüksək səmərəlilik verir.



**Yoluxmuş yarpaq**